UOT 78:378.116

Kəmalə İsmayılova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: i-ismailova@yandex.ru

MUSİQİLİ-PEDAQOJİ FƏALİYYƏT PROFESSİONAL VƏ ŞƏXSİ KEYFİYYƏTLƏR KOMPLEKSİ KİMİ

Açar sözlər: *musiqili-pedaqoji sənət, professional və şəxsi qabiliyyətlərin inteqrasiyası*

Məqalədə musiqi müəlliminin professional bilik, bacarıq və qabiliyyətlərinin şəxsi keyfiyyətlərlə qarşılıqlı harmonik əlaqəsinin zəruriliyi nəzərdən keçirilir. Belə qarşılıqlı əlaqə müəllimin pedaqoji fəaliyyətinin səmərəliliyinə kömək edir. Müəllif hesab edir ki, tələbənin gələcək musiqili-pedaqoji fəaliyyətinin yüksək professional səviyyədə hazırlığı təkcə lazımi bilik, bacarıq və qabiliyyətlərin əldə olunması ilə deyil, eyni zamanda insan mənəviyyatının əsasını təşkil edən şəxsi, mənəvi dəyərlər kompleksi ilə müəyyən olunur.

Кямаля Исмайлова

МУЗЫКАЛЬНО-ПЕДАГОГИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ КАК КОМПЛЕКС ПРОФЕССИОНАЛЬНЫХ И ЛИЧНОСТНЫХ КАЧЕСТВ

Ключевые слова: *музыкально-педагогическая профессия, интеграция профессиональных и личных способностей*

В статье рассматривается необходимость гармонического взаимодействия профессиональных знаний, умений и навыков с личностными качествами учителя музыки, благоприятствующими его педагогической деятельности. Автор, считает, что высокий уровень профессиональной подготовленности студента к будущей музыкально-педагогической деятельности определяется не только приобретением необходимых знаний, умений и навыков, но и комплексом личностных, духовных ценностей, составляющих основу человеческой культуры.

Kamala Ismailova

MUSICAL-PEDAGOGICAL ACTIVITY AS A COMPLEXITY OF PROFESSIONAL AND PERSONAL QUALITIES

Key words: *musical-pedagogical occupation, integration of personal and professional abilities*

The article investigates necessity of interaction between music educator's professional skills, experience and personal characteristics. This interaction also facilitates educator's self development. The author emphasizes that highly qualified preparation of future educators depends not only on achieving skills, experience and knowledge, but also on the complexity of personal characteristics and spiritual values that are parts of human nature.

XX əsrin sonu, XXI əsrin əvvəli ölkənin sosial iqtisadi və mədəni inkişafında baş verən yeni mərhələ bir tərəfdən, demokratik proseslərə, dünya təhsil sisteminə inteqrasiyaya və onun normativ standartları ilə ayaqlaşmaya, digər tərəfdən, Azərbaycan xalqının musiqili-mədəni, humanist ənənələrinin dirçəlməsinə gətirib çıxarmışdır.

Tələbələri dünyanın bədii və humanist dəyərlərinin iştirakçısı etmək – Azərbaycanın ali məktəblərində müasir humanitar elm və təhsilin əsas istiqamətidir.

Respublikada professional musiqili-pedaqoji təhsil sistemi daim təkmilləşir: tədris, tədris-metodik və sorğu-informasiya üzrə ədəbiyyat yaradılır, müəllim hazıqlığı və təkmilləşdirilməsi həyata keçirilir, müxtəlif ixtisaslar üzrə tədris planları və proqramlar yenilənir, ayrı-ayrı fənlər inteqrallaşır, tələbələrin bilik və bacarıqlarına xələl gəlmədən həftəlik dərs yükü ixtisar olunur, tələbənin praktik hazırlığı, onun müstəqil şəkildə çalışqalığı və yaradıcılıq fəallığına xüsusi nəzarət edilir.

Bu islahatlar təhsilə birtərəfli yanaşmanı aradan qaldırmağa, musiqiçi-pedaqoq hazırlığında texnokratik təmayüllərin öhdəsindən gəlməyə, yüksək peşəkar təhsil görmüş mütəxəssislərin yetişməsinə imkan verir, eyni zamanda tək professional (pedaqoji) deyil, həm də müasir cəmiyyətin həyatında və ətraf mühitdə baş verən sosial məsələlərin mürəkkəb problemlərinin həllinə şərait yaradır.

Odur ki, müasir mərhələdə elmi-pedaqoji fikrin inkişafında gələcək mütəxəssisin professional aktivliyinin formalaşmasına əsas yer verilir: pedaqoqun şəxsi keyfiyyətləri və onun öz professional fəaliyyətinin həyata keçirməsinin vacib şərtləri kimi qiymətləndirilir.

Lakin professional pedaqoji bacarıqların artırılmasında tədqiqatçıların fəal axtarışına baxmayaraq, gələcək musiqi müəllimlərinin təhsilində səciyyəvi neqativ meyllərin mövcudluğu hələ də müşahidə edilir. Ali təhsil müəssisələrində tələbələrin professional hazırlıq kompleksinin qeyri-müntəzəmliyi buna misaldır.

Tələbənin gələcək musiqili-pedaqoji fəaliyyətinin yüksək professional səviyyədə hazırlığı təkcə lazımi bilik, bacarıq və qabiliyyətlərin əldə olunması ilə deyil, eyni zamanda insan mənəviyyatının əsasını təşkil edən şəxsi, mənəvi dəyərlər kompleksi ilə, fəal yaradıcılığa sövq edən potensial qabiliyyətlərlə müəyyən olunur. Müasir cəmiyyət yüksək peşə vərdişlərinə, professional bilik və bacarıqlara, yaradıcı qabiliyyətlərə, təşəbbüskarlığa, müstəqilliyə, mədəniyyətə, intellektə, mənəviyyata, yüksək əxlaqi keyfiyyətlərə malik pedaqoq-şəxsiyyətlərə ehtiyac duyur.

Bu vəzifələr ali tədris ocaqlarında musiqiçi-pedaqoqun professional hazırlığı üçün əhəmiyyətli və mükəmməl islahatların keçirilməsini tələb edir.

Ali tədris müəssisələrində təhsil prosesi gələcək musiqi müəllimlərinin həm şəxsi [1], həm də professional bacarıqlarının vəhdəti üzərində qurulan kompleksli hazırlıq həyata keçirməlidir. Təlim-tərbiyənin geniş təcrübəsinin öyrənilməsi və təhlili göstərir ki, tələbələr tərəfindən əldə olunan pedaqoji bilik, bacarıq və qabiliyyətlər onların musiqili-pedaqoji professional fəaliyyətinin uğurunu təmin etmir. Bütün digər peşə növləri içərisində məhz pedaqoji sənət insan amili ilə bağlıdır. Çünki müəllim daim inkişaf edən və dəyişilən "canlı material" ilə, yəni insanla işləməli olur. Ona görə də müəllimin səmərəliliyi, effektivliyi və məhsuldarlığı həm də onun şəxsi keyfiyyətlərindən asılıdır.

Dərs vermək – yaradıcı xarakterli mürəkkəb psixi prosesdir. Burada çoxsaylı və müxtəlif amillər birləşir. Pedaqoji işə laqeyd, mexaniki yanaşmaq olmaz – bu ən insanpərvər peşələrdən biridir. A.V.Lunaçarskinin qeyd etdiyi kimi: "Bizim üçün vacibdir ki, pedaqoq – dövlətin ən universal və ən gözəl insanı olsun, ayrı heç bir peşə insan qarşısında belə tələblər qoymur. Pedaqoq özündə insan idealını yetişdirməlidir" [1, s.31].

Musiqi müəlliminin peşəkar təcrübəsi onun şəxsi göstəricilərinə heç də həmişə uyğun gəlmir. Bu isə musiqili-pedaqoji fəaliyyətin ümumi nəticələrinə mənfi təsir edir.

Belə uyğunsuzluq onunla şərtləndirilir ki, ali təhsil ocağında təhsil əsas etibarilə pedaqoji bilik, bacarıq və qabiliyyətlərin əldə olunmasına yönəldilir və gələcək mütəxəssislərin ümumi professional hazırlıq səviyyəsi bununla müəyyən edilir.

[1] Hazırkı tədqiqat işində "şəxsi" məvhum altında musiqili-pedaqoji fəaliyyətə əlverişli şərait yaradan müsbət insan bacarıqları nəzərdə tutulur.

Mahiyyətinə görə, tələbələrin bir tək əyani bilikləri onların gələcək pedaqoji ixtisas dərəcəsini təyin edən əsas göstərici olur. Belə olduqda təhsil ərzində tələbə-məzun özünün pedaqoji fəaliyyətinin yalnız nəzəri hazırlığını nümayiş etdirir. Onun şəxsi göstəriciləri isə (şəxsin pedaqoji fəaliyyət üçün səmərəli olan psixi və sosial xüsusiyyətlər kompleksi) nəinki kontrol edilmir, hətta onun ümumi pedaqoji fəaliyyətində iştirak etmir. Bu səbəbdən biz çox vaxt yüksək ixtisaslı müəllimin öz yetirmələri ilə ünsiyyət qura bilməməsi, onları başa düşməməsinin, buna görə də öz bilik və bacarıqlarını tələbələrə çatdıra bilməməsinin, pedaqoji sənətə yiyələnməməsinin şahidi oluruq. Pedaqoji fəaliyyətdə belə bir paradoks təkcə musiqi müəllimləri deyil, həm də başqa ixtisaslar üçün xasdır.

Digər tərəfdən, təcrübə çox vaxt bunun əksini göstərir, misal üçün, zəruri professional bilik, bacarıq və qabiliyyətlərə, müsbət şəxsi keyfiyyətlərə malik olmayan tələbə də həmçinin, öz pedaqoji fəaliyyətinin öhdəsindən uğurla gələ bilmir. Pedaqoji tədris ocaqlarının musiqi fakultələrində tələbə hazırlığı zamanı bu iki hal səciyyəvidir. Onlar gələcək musiqi müəlliminin şəxsi və professional keyfiyyətləri arasındakı uyğunsuzluğu, ali təhsil müəssisəsinin strukturundakı pedaqoji hazırlığa cavab verən şəxsi keyfiyyətlərin mövcud olmamasını təsdiq edir.

Axı şəxsin bu və ya digər fərdi xüsusiyyətləri onun professional müəllim kimi təşəkkülünü çətinləşdirə, hətta ona maneçilik törədə bilər. Məhz buna görə məzun, gələcək müəllim kimi yaxşı dərk etməlidir ki, onun şəxsi keyfiyyətlərindən hansılar pedaqoji sənətə yiyələnməyə kömək edə, ona şərait yarada bilər və o, bu xüsusiyyətlərdən hansıları özündə formalaşdıra, yaxud əksinə, aradan qaldırmağa imkan verər. Özündə pedaqoji istedadı hərtərəfli inkişaf etdirmək üçün iradə, istək, düşüncə tələb olunur. Buna aparan yol isə - özünütərbiyə, özünütəlim və özünüinkişafdır.

Musiqiçi-pedaqoq peşəsi təkcə musiqili-pedaqoji bilik, bacarıq və qabiliyyətlərin, artistizmin zəruriliyini deyil, həm də universal mədəniyyətin, təhsil, etika və tərbiyənin vacibliyini irəli sürür.

Müəllim üçün iti müşahidəçilik qabiliyyəti, yaxşı yaddaş, həssas intuisiya, zəngin təxəyyül və tolerantlığa, professional mütəhərrikliyə və səriştəyə malik olmaq vacibdir. Müəllim fəal, eyni zamanda təmkinli, emosional və nizamlı, inadlı və səbrli olmalı, öz diqqətini cəmləşdirməyi bacarmalı və bir fəaliyyət dairəsindən digərinə yön almalıdır, müxtəlif yaş və xarakterə malik tələbələrlə asanlıqla ünsiyyət yaratmalıdır. Bütün bu proseslər zamanı insan temperamenti, onun xarakteri və psixikasının xüsusiyyətləri öz ifadəsini tapır. Qapalılıq və cəsarətsizlik, hirslilik və tündməcazlıq, emosional sərtlik və ləng reaksiyalı insan keyfiyyətləri uğurlu pedaqoji prosesə imkan yaratmır. Onlar - pedaqoji fəaliyyət üçün mənfi amillərdir.

Musiqili-pedaqoji fəaliyyət – mürəkkəb, çoxtərkibli kompleksdir, burada mühüm professional və müsbət şəxsi keyfiyyətlər bir-birinə fəal surətdə inteqrasiya edir və onun həyata keçməsinə xüsusi şərait yaradır. Pedaqoji fəaliyyət zamanı insanın professional hazırlığı ilə şəxsi keyfiyyətləri qırılmaz surətdə bir-birinə bağlıdır. Pedaqoji fəaliyyətin uğuru insanın ona meylliliyindən, ondakı pedaqoji bacarıqların mövcudluğundan asılıdır. Öz növbəsində musiqi müəlliminin pedaqoji hazırlığı həmçinin universal bilik, bacarıq və qabiliyyətlərin inteqrasiyasını: pedaqoji, musiqili (ifaçılıq, nəzəri, tarixi), psixoloji, artistik, kommunikativ bacarıq elementlərinin tam şəklində birləşməsini tələb edir.

Qeyd olunanlardan belə nəticəyə gəlirik ki, musiqili-pedaqoji sənətin mahiyyəti vacib professional və şəxsi keyfiyyətlərin inteqrasiyasından ibarətdir. "Professional və ictimai funksiyaya malik olan, hər zaman öz tələbələrinin, onların işə həvəslə yanaşan valideynlərinin, geniş ictimaiyyətin ədalətli və qərəzsiz carçısı olan müəllim şəxsiyyətinə, onun mənəvi simasına yüksək tələb vardır. Müəllimə olan ehtiyac - professional keyfiyyətlər sistemi olub, pedaqoji fəaliyyətin uğurunu müəyyən edir" [2, s.240]. Pedaqoji elmdə pedaqoji peşəyə olan tələb məhz belə müəyyən olunur.

Beləliklə, ali təhsil müəssisələrində musiqi müəllimlərinin pedaqoji hazırlığı yetəri dərəcədə həyata keçirilmir, çünki bir-biri ilə qarşılıqlı əlaqədə olan iki mühüm amillərin inteqrasiyası: tələbənin professional bilik, bacarıq və qabiliyyətlərinin şəxsi keyfiyyətlərlə qarşılıqlı əlaqəsi kompleksli təhsil sistemində mövcud deyildir. Bu isə pedaqoji peşədə vəhdət təşkil edir və onun uğuru və səmərəliliyini müəyyən edir.

Hazırki problemin aktuallığı məhz bu mühüm amil ilə müəyyən olunur. Bu isə onun elmi cəhətdən tədqiqinin əhəmiyyətini şərtləndirir və onun praktik olaraq həyata keçirilməsindən ötrü müvafiq üsullar axtarışını zəruri edir. Ali təhsil müəssisələrində tələbələrin professional musiqili-pedaqoji hazırlığı təhsilin arzu olunan istiqaməti ilə hazırda mövcud olan təcrübəsi arasındakı təzadlığı nümayiş etdirir. Hazırda mövcud olan təcrübə göstərir ki, tələbələrin professional və müsbət şəxsi bacarıqları arasında qarşılıqlı, harmonik təsir mövcud deyil.

ƏDƏBİYYAT

1. Луначарский А.В. О воспитании и образовании. М.: Педагогика, 1976.
2. Подласый И.П. Педагогика: Новый курс: Учеб. для студ. высш. учеб. заведений: В 2-х кн. Кн.1. Общие основы. Процесс обучения. М.: Гуманит.изд.центр ВЛАДОС, 2002.

3. Подласый И.П. Педагогика: Новый курс: Учеб. для студ. высш. учеб. заведений: В 2-х кн. Кн.2. Процесс воспитания. М.: Гуманит. изд. Центр ВЛАДОС, 2002.

Məqalənin redaksiyaya daxil olma tarixi: 12.10.2016
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.11.2016
Məqalənin çapa qəbul olunma tarixi: 17.03.2017
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə elmlər doktoru, professor Tamilla Kəngərli
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.